Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№13 (3352) 15 Aprel / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# ALLAHA İNAM



*Dövran belə gəlib, deyim biləsən,*
*Gərəkir pul yığıb, cibi güdəsən,*
*Əyilib, büzülüb, üzə güləsən,*
*Düz olmaq çətindir, çətindir yaman,*
*Haqq sözü deyəndə, tək qalır insan.*

*Zəmanə necə ki, fırlanır belə,*
*Ölüb-dirilərsən gündə min kərə,*
*Nəbadə doğru söz dilinə gələ,*
*Üstünə tökülər şər-böhtan o an,*
*Haqq sözü deyəndə tək qalır insan.*

*Hər yoldan keçənə deyilməz sirdaş,*
*Ucalan adama çox olar yoldaş,*
*Çalış bu həyatda yıxılma qardaş,*
*Bir nəfər tapılmaz əlindən tutan,*
*Haqq sözü deyəndə, tək qalır insan.*

*Şeytan aramızda yaşayır deyə,*
*Gözləmə ədalət gələcək yerə,*
*Gəl yerə güvənmə, üz tut göylərə,*
*Allaha tapın sən, Allaha inan,*
*Haqq sözü deyəndə tək qalır insan.*

*Şamil AZİZ*
*Çeboksarı, 11.10.2023*